Saakaşvili Odessa vilay□tin□ 2015-ci ilin may ayınnı 30-dan r□hb□rlik edir.



Ukrayna prezidenti Odessa Dövlət Administrasiyasının rəhbəri Mixail Saakaşvilini Ukraynanın baş naziri kimi görmür.

Dalgatv Ukrayna KİV-ə istinadən xəbər verir ki, bu arədə o, Independent-ə verdiyi müsahibəsində bildirib.

Poroşenkoya bir başa olaraq Odessa Dövlət Administrasiyası rəhbərinin vəzifəsinin yüksəldilməsi barədə sual veriblər.

“Şübhəsiz ki, o, əla baş nazir ola bilər. Gürcüstanda”, - deyə, president bildirib.

Xatırladaq ki, sentyabrın 7-də president 25 min vətəndaşdan Saakaşvilini Ukrayna hökumətinin

başçısı təyin etmək barədə müraciət alıb.

Bununla belə, Saakaşvilinin özü baş nazir olmaq istəmədiyini bəyan edib.

Saakaşvili Odessa vilayətinə 2015-ci ilin may ayının 30-dan rəhbərlik edir. 2004-cü ilin əvvəlindən 2013-cü ilin sonuna qədər Gürcüstanın prezidenti olub.

Hal-hazırda Ukrayna Nazirlər Kabinetinə Arseni Yatsenyuk rəhbərlik edir.